İSSN-0207-4710
2010-cu il

# GÖYƏRÇİN

1



# «QURANİ-KƏRİM»DƏN AYƏLƏR

RAFİQ YUSİFOĞLU

Güclü, müdrik olan Allah nazil eləmiş bu Kitab-i.

•••

Günahlardan keçən, rəhmli olan təkcə O-dur.

•••

Zalımları doğru yola yönəltməz Allah.

Zalımlara xəbərdarlıq eləyər, yaxşılara müjdə verər bu «Quran».

•••

O kəslər ki, «Rəbb-imiz Allah-dır» deyəndən sonra düzəliblər düz yola, zaval yoxdur onlara, üzülməzlər qəm əlindən.

•••

İnsana buyurmuşuq yaxşı olsun atasına, anasına.

•••

Hər kəsin gördüyü işlərə görə öz məqamı var. Hərəyə öz işlərinə görə Allah dərgahında verilər əvəz. Heç kimin haqqında bir haqsızlıq edilməz.

## YENİ İL ŞƏNLİYİNDƏ

Uşaqlar yeni il şənliyinə getmişdilər. Onlar cürbəcür oyuncaqlarla bəzədilmiş yolka ağacının dövrəsində mahnı oxuyur, təzə ilə, qışa. Şaxta babaya aid şeir söyləyir, rəqs edirdilər.

Şaxta baba o qədər atılıb-düşdü, balacalarla əyləndi ki, lap yoruldu.

Uşaqlar rəqs eləyəndə o, arxaya keçib çay içmək istədi. Anar bunu görüb güldü və qışqırdı:

-Şaxta baba, çay istidi, onu içmə! Əgər içsən, əriyib suya dönərsən.

Uşaqlar Anarın sözünü eşidib gülüşdülər. Şaxta baba ilə Qar qız da onlara qoşuldu...

Rəssam Afər





## TƏZƏ İL

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə, il,
Uğurlu qədəminlə
Ömrümüzü bəzə, il.

Kaman gətir, saz gətir,
Şirin bir avaz gətir.
Dön zəfərlər ilinə,
Ürəklərə yaz gətir.

Tez gəl, bizi sevindir,
Yolu, izi sevindir.
Doğmaları gözləyən
Dağı, düzü sevindir.

Üzlərə işıq gətir,
Gözlərə işıq gətir.
Kül altında uyuyan
Közlərə işıq gətir.

Sevincdən əsir dilim,
Xoş gördük, təzə ilim.
Gəlişinlə yurdumdan
Dərd itsin ilim-ilim.

Yaxamı külək açsın,
Qədəmin ürək açsın.
İnsanların qəlbində
Arzular çiçək açsın...

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. №

